# GTT-nin əməkdaşları Gənclər Günü münasibəti ilə təltif olunub







Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatının iki gənc əməkdaşı - rəssam Reyhan Aslanova və aktyor Nurlan Süleymanlı 2 Fevral Gənclər Günü münasibəti ilə "2019-cu ildəki aktiv fəaliyyətlərinə görə" Gənclər və İdman Nazirliyi tərəfindən diplomla təltif olunublar. Qeyd edək ki, 2019-cu ildə AzTXİ-nin keçirdiyi "10 Mart - Milli Teatr Günü" plakat müsabiqəsinin qalibi olan Reyhan Aslanova həm də il ərzində GTT-nin bir neçə tamaşalarının quruluşçu rəssamı olub. Gənc aktyor Nurlan Süleymanlı isə 2019-cu ildə ondan çox tamaşada rol alıb. "Kaspi" qəzetinin "Teatr" əlavəsi adından yaradıcı gəncləri təbrik edir və yaradıcılıq uğurları arzulayırıq.

Kaspi 2020.- 6 fevral.- S.12.